Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 31 Mart qırğınlarını törədənlərin müdhiş sonluğu

## *Tarixin qisası*

***Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması***

***Prof. Ramazan ŞİRAÇOĞLU***

Ərazisinin böyüklüyünə görə yalnız Böyük Britaniyadan geri qalan Rusiya imperiyası (19,16 milyon kvadrat verst – 20,44 milyon kvadrat kilometr) XIX əsrdə, sözün əsl mənasında, Avropanın jandarmı rolunu oynayırdı. Günəşin qürub etmədiyi bu nəhəng imperiyanı idarə etmək üçün ölkə 78 quberniyaya, 21 vilayətə, 2 muxtar mahala bölünmüşdü. İmperiya strateqləri hərbi-siyasi önəm daşıyan bölgələrdə canişinliklik yaratmışdılar. Bakı, Yelizavetpol ( Gəncə), Kutaisi, Tiflis, İrəvan quberniyaları Qafqaz canişinliyi tərkibinə daxil edilmişdi.

XIX əsrin 70-ci illərində Bakıda neft sənayesi geniş vüsət tapdığı bir dönəmdə, Rusiya başda olmaqla, ətraflarda yaşayanlar, o cümlədən, ermənilər də, buraya axın etməyə başlamışdılar. Qacariyyə və Osmanlı dövlətləri ərazisində yaşayan ermənilər Türkmənçay müqaviləsindən sonra kütləvi şəkildə Bakıya, Gəncəyə, Naxçıvana, Qarabağa axışıb gəlir, sürətlə bu ərazələrdə yerləşib məskunlaşırdılar.

Digər xalqlardan fərqli olaraq, ermənilər istənilən şəraitə asanlıqla uyğunlaşa bildiklərindən, mənsəb sahiblərinin qılığına girməyi bacardıqlarından, rus hamilərinin də dəstəyi sayəsində qısa zamanda Bakıda söz, nüfuz sahibi olmuş, vəzifələr tutmuş ermənilər lobbi fəaliyyətlərini genişlətmiş, bir-birilərini tərifləyə-tərifləyə vəzifə nomenklaturasında çox irəliləmiş, Bakı şəhərinin müəyyən hissəsində öz məhəllələrini yaratmışdılar. Onlar mütəşəkkil fəaliyyətin faydalı iş əmsalının yüksək olduğuna çoxdan inanmışdılar. Gücləndikcə şəhər aborigeninə zaman-zaman diş də göstərirdilər. Qısa zamanda yerli əhali ilə ermənilər arasında ziddiyyətlər yaranmağa başlamışdı.

Narazılığın kökü Bakı quberniyasında ayrı-seçkiliyin hökm sürməsi ilə izah olunmalıdır. Belə ki, rus çarizminin 1870-ci ildə tətbiq etdiyi qaydaya görə, Bakı şəhər bələdiyyəsinin tərkibinin ancaq 3/1 hissəsini, 1892-ci il düzəlişinə görə isə, 5/1 hissəsini qeyri-xristianlar təşkil edə bilərdilər. XX əsrin əvvələrində Bakı əhəlisinin 80%-dən çoxu müsəlman türklərdən ibarət idi. (Bax: The Azerbaijani Turks: power and identity under Russian rule. Hoover Press, 1992, p. 25).

Cənubi Qafqaz Rusiyaya ilhaq edildikdən sonra çarizm açıq-aşkar müsəlman adət-ənənələrinin, şəriət qaydalarının aradan çıxmasına yönəlik siyasət yürüdür, milli və islami dəyərləri gözdən salmaq məqsədilə müxtəlif tədbirlər görür, müsəlmanların özlərindən olan



bəzi mütəfəkkirləri bu istiqamətdə fəaliyyətə təşviq edir, məhkəmələrdə yalançı şahidlərin ifadəsi əsasında, bir qayda olaraq, türklərin əleyhində qərarlar çıxarılır, qondarma dəlillərlə türklərin mülkləri əllərindən alınır, onları mədəniyyətin düşməni, insani dəyərlərdən uzaq varlıqlar kimi nüfuzdan salmaq kampaniyası aparılırdı. Çarizm rejimi türkləri təhlükə mənbəyi olaraq gördüyündən erməniləri özlərinin vəfalı dindaşı və etibarlı dayağı olaraq dəyərləndirir, hər yerdə ermənilər mühüm vəzifələrə gətirilirdi. O dönəmdə, nadir hal olsa da, erməniləri xoşlamayan başçılara da rast gəlmək mümkün idi. Məsələn, general Q.S. Qolitsın (1838-1907) 1896-cı ilin dekabr ayında Qafqaz inzibati ərazisinin başçısı və Qafqaz Hərbi Dairəsinin komandanı təyin olunandan sonra rəhbərlik etdiyi strukturlarda işçilərin təxminən 90 faizinin erməni əsilli olduğunu biləndə sarsılmış və oralarda yerləşib-yataqlanmış ermənilərin əksəriyyətini vəzifələrindən uzaqlaşdırmışdı. (Məhz buna görə də, 14.10.1903-cü ildə ermənilər Tiflisdə ona qarşı qanlı terror aktı həyata keçirmişdilər. Nəticədə, general Q.S. Qolitsın öz əhdinə çatmadan həlak olmuşdu. Generalın "Dovedu do toqo, çto edinstvennım arməninom v Tiflise budet çuçelo arməninа v Tiflisskom muzee!- Elə edəcəyəm ki, Tiflisdə yeganə erməni Tiflis muzeyindəki erməni müqəvvası olacaq" vədi elə söz olaraq da qaldı). (Bax: Tadeusz Swietochowski, Russian Azerbaijan, 1905—1920 New York: Cambridge University Press, 1985, p. 40).

Bakı və Yelizavetpol quberniyalarında tədricən artıb çoxalan ermənilər vaxtaşırı olaraq türklərə hücumlar edir, sanki onların sayıqlığını, hazırlığını və nə cavab verəcəklərini sınayırdılar. 6 fevral 1905-ci ildə bir azərbaycanlı fəhlənin ermənilər tərəfindən vəhşicəsinə öldürülməsindən sonra Bakıdakı azərbaycanlılar cavab tədbiri görməyə məcbur qaldılar. Böyük Britaniyanın Bakı şəhərindəki o zamankı konsulu Patrik Stivensonun məlumatına görə, həmin ilin fevral ayında 900 nəfər azərbaycanlı və 700 nəfər erməni öldürülmüşdü (Bax: Justin McCarthy. Death and Exile-1821-1922, Princeton, New Jersey, The Darwin Press, 1995). Qısa müddət ərzində azərbaycanlılarla ermənilərin qarşıdurması geniş vüsət alaraq Qarabağa, Naxçıvana, Zəngəzura da yayıldı. O dönəmdə Britaniyanın vitse-konsulu olmuş Makdonellin sözlərinə görə, əgər müsəlmanların böyük əksəriyyəti hadisələri passiv şəkildə kənardan izləməsəydi Qafqazda erməni qalmazdı. Britaniyalı diplomatların fikrinə görə, çarizm rejiminin ermənilərə olan hüsn-rəğbəti, favoritizm siyasəti ermənilərdə Qafqaz türklərinə qarşısında özlərində inam, cəzasızlıq hissi yaratmış, onların türklərə qarşı iddialarını artırmışdı ( Bax: Kenneth Bourne, Cameron Watt. British Documents on Foreign Affairs: Reports and Papers From the Foreign Office Confidential Print, Volume 3, Russia 1905—1906, p.185-186).

Qeyd edilməlidir ki, Azərbaycan türklərinin kütləvi şəkildə məhv edilməsində xüsusi canfəşanlıq göstərən, erməniləri vahid mərkəzdən idarə edən siyasi təşkilat "Daşnaksütun" olmuşdur. Osmanlı dövlətinə qarşı mübarizə aparmış bolqarlardan ruhlanan qatı erməni millətçiləri 1890-cı ildə öz partiyalarını yaratmış, əvvəlcə gizli, daha sonra isə açıq fəaliyyətə keçmişdilər (Bax: D. Henry. Baku An Eventful. London, 1905, p. 149—150). Erməni millətçiləri mütəşəkkil qaydada öz dövətlərini yaratmaq üçün bütün vasitələrə əl atmışdılar. İşi o qədər irəlilətmişdilər ki, 22.11.1920-ci ildə ABŞ-ın o zamankı prezidenti Vudro Vilson (1856-1924) Osmanlı torpaqlarında (Trabzon, Ərzurum, Van və Bitlis vilayətlərində - cəmi 103,6 min kv.km) Ermənistan dövlətinin yaradılması layihəsini imzalamışdı. Vilson layihəsinə görə, yaranacaq Ermənistan dövlətinin Qara dənizə çıxışını təmin etmək üçün Batum tərəfdən onlara müəyyən koridor da açılacaqdı. Məlum olduğu kimi, Qazi Mustafa Kamal Paşa siyasi hakimiyyətə gələn kimi bu planı rədd etdi. 3 mart 1918-ci ildə imzalanmış Brest-Litovsk müqaviləsi əsasında Sovet Rusiyası cənub cəbhəsindən çəkilincə ermənilər də Şərqi Anadoluda müvəqqəti olaraq ələ keçirdikləri ərazilərdən qaçdılar. Maksimum proqramları gerçəkləşməyincə minimum proqramın realizasiyasına başladılar: Azərbaycana aid yerlərə sahiblənmək üçün yerli əhalini kütləvi şəkildə qırmaq, qovmaq və o yerlərdə möhkəmlənmək. Azərbaycan türklərinə aid hər şeyi - maddi-mədəniyyət abidələrini, evləri, məzarlıqları, məscidləri yerlə yeksan etmək, onlara aid bütün izləri yer üzündən silmək, ermənilərin bu yerlərin əzəli sakini olduqlarını "sübut etmək" üçün kilsələr inşa etmək, "xaçkar"lar (üzərində "üstəgəl" işarətinə bənzər motivlər, çiçək və ya günəş rəmzi həkk olunmş daşlar) ucaltmaq onların ümdə işləri oldu. 1918-ci ilin 31 martı bu yolda atılan ciddi və mütəşəkkil hazırlığın başlanğıcı kimi dəyərləndirilməlidir.

Dişləri qana batmış ermənilər qazandıqları uğurlardan ruhlanmış, daha böyük hədəf müəyyənləşdirmişdilər: Bakıda bir nəfər də olsun türk yaşamasına imkan verməmək! Bütün hazırlıqlarını bu məqsədin reallaşması naminə görmüş, intuitv olaraq fürsət anının gələcəyi günün uzaqda olmadığını anlamışdılar.

Birinci Dünya müharibəsinin başlaması çox yerdə hərbi-siyasi mənzərəni dəyişdirdi. Xüsusən, Peterburqda baş vermiş 25 oktyabr 1917-ci il inqilabı bərabərində böyük təlatümlər gətirdi. Bir anda hər şey, bütün dəyərlər, meyarlar yox olmuş, faktik olaraq gün batmayan nəhəng ölkədə "Pompeyin son günü"nü xatırladan əsl xaos başlamışdı. Müəzzəm imperiya mərkəzdənqaçan güclərin sayəsində bir anda çökmüşdü. Yarandığı 1890-cı ildən bu anın həsrəti ilə yaşayan "Daşnaksütun" – "Birlik" partiyası liderlərinin əlinə böyük fürsət düşmüşdü. 1906-cı ildən rəsmi şəkildə çarizm tərəfinə keçən daşnaklar 1916-1917-ci illərdə Qafqaz cəbhəsində Osmanlı dövlətinə mümkün qədər daha çox zərər vurmaqla məşğul olmuşdular. Onlar yaxşı bilirdilər ki, taleləri Rusiyanın qələbəsindən asılıdır. Siyasi fəaliyyətlərini qanlı terror əsasında qurmuş daşnaklar öz üzvlərinə ruslara qarşı ən kiçik təxribatı belə yasaqlamışdılar. Onların əzəli hədəfi türklər idi. Daşnakların türk etnosuna qarşı qəddarlığı tanınmış ingilis tarixçisi Donald Blokshemi də təəccübləndirmişdi ( Bax: Bloxham D. Genocide on trial : war crimes trials and the formation of Holocaust history and memory. — Oxford ; New York: Oxford University Press, 2001). Bolşevik cildinə girmiş daşnaklar 1917-ci ilin noyabrından Bakıda mühüm vəzifələr tutmuşdular. Bakıda iqtidarda olan 26-ların başçısı Stepan Şaumyan Azərbaycanı sovetləşdirmək bəhanəsi ilə Bakıda, Şamaxıda, Qubada, Lənkəranda törədilən hərbi cinayətləri son qələbəyədək davam etdirməyin zəruriliyini bildirirdi (Bax: Şaumən S. Q. İzbrannıe proizvedeniə. T. 2. (1915 – 1917). M., 1918, s. 254).

Sovet hakimiyyəti rejimində yüksək vəzifə əldə etmiş daşnaklar müxtəlif bəhanələrlə türkləri açıqdan açığa sıxışdırmağa başladılar. 1917-ci ilin sonlarında Bakıda fəaliyyətə başlayan "erməni milli şurası" (HAX – Hayastani azqayin xorhurdi) ermənilərin fəaliyyətini koordinə etmək, daşnaklara türklər haqqında lazımı məlumatlar ötürmək, türk zənginlərinin ünvanlarını öyrənmək, ermənilərə antitürk təbliğatı yaymaq, rus və yəhudilərin gözündə məsum erməni obrazı yaratmaq, mətbuatı ermənilərin təşviqat maşınına çevirmək idi.

1918-ci ilin yanvarında cəbhədən Bakıya qayıdan türk əsgərlər daşnaklar tərəfindən tərksilah edilərək həbs olunmuşdular. Etiraz edənlər dərhal cəzalandırılırdılar. İş o həddə çatmışdı ki, yerli sakinlər vağzal tərəfə gedə bilmirdilər. Onlar qatara minmək istəyəndə Biləcər tərəfə getməyə məcbur olurdular. Türklər dəfələrlə erməniləri dostluğa dəvət etsələr də, ermənilər öz ədavətlərini davam etdirirdilər.

***Ardı var.***